# Azərbaycan Türkiyə turizm sərgisində

**Azərbaycanın turizm imkanları Türkiyənin İstanbul şəhərində keçirilən Şərqi Aralıq dənizi Beynəlxalq Səyahət və Turizm Sərgisində təbliğ edilir. Dünyanın 5 böyük sərgisindən biri hesab edilən Şərqi Aralıq dənizi Beynəlxalq Səyahət və Turizm ekspozisiyasında 95 ölkə təmsil olunur.**



Sərginin milli stenddə 10 yerli turizm sənayesi nümayəndəsi və "Azərbaycan Hava Yolları" QSC təmsil olunur. Ziyarətçilərə Azərbaycan turizm imkanları, o cümlədən qastroturizm, şərabçılıq, qış turizmi və dağ-xizək mərkəzləri, UNESCO-nun Ümumdünya İrs Siyahısında yer alan maddi mədəni irs nümunələri barədə ətraflı məlumat verilir. Türkiyə və digər ölkələri təmsil edən turizm nümayəndələri ilə B2B formatında görüşlər də təşkil edilir.

Qeyd edək ki, 2024-cü ildə Türkiyə Azərbaycana səfər edən xarici ölkə vətəndaşlarının sayına görə, ikinci yerdə qərarlaşıb. Ötən il ölkəmizə Türkiyədən 426 min 241 nəfər turist gəlib ki, bu da 2023-cü illə müqayisədə 13 faiz çoxdur.

***Qəzənfər QASIMOV***
***XQ***

Xalq qəzeti .- 2025.- 8 fevral (№ 28).- S.12.